

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır


# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 197 (23.609)

14 noyabr 2020-ci il, şənbə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Vətən uğrunda canlarından keçənlər əbədi yaşayacaqlar

# Naxçıvanda şəhidlər ehtiramla qarşılanıb





Sentyabrın 27-də ordumuz erməni təxribatının qarşısını almaq məqsədilə Vətən müharibəsinə başlamış və Azərbaycan 30 il işğal altında olan torpaqlarımızı azad edərək noyabrın 10-da böyük qələbə qazanmışdır. Bu tarixi qələbə Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi ilə rəşadətli milli ordumuzun şücaəti nəticəsində mümkün olmuşdur. Naxçıvan Muxtar Respublikasından olan igid oğullarımız da döyüşlərdə qəhrəmancasına mübarizə aparmışlar. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin də dediyi kimi: ***“Naxçıvanlılar da İkinci Qarabağ müharibəsində digər bütün bölgələrdən olan vətəndaşlar kimi fəal iştirak ediblər... Bütün bölgələrdən olan hərbçilərlə bərabər naxçıvanlılar da böyük qəhrəmanlıq göstəriblər və torpaqlarımızın azad edilməsi işində fədakarlıq göstəriblər, şəhidlər veriblər”.***

Noyabrın 13-də Naxçıvan Beynəlxalq Hava Limanında şəhidlərimizin qarşılanma mərasimi olmuşdur.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov tədbirdə iştirak etmişdir.

Dövlət və hökumət nümayəndələri, Türkiyənin Naxçıvandakı Baş konsulu və Türkiyə Silahlı Qüvvələrinin Azərbaycan Respublikasındakı hərbi attaşe aparatının Naxçıvan Muxtar Respublikasındakı nümayəndəliyinin zabitləri, şəhidlərin ailə üzvləri də tədbirdə iştirak etmişlər.

Şəhid olan hərbi qulluqçularımız Qurbanov Xansu Elsevər oğlunun, İsmayılov Əmrah Xudaverdi oğlunun, İbrahimov Ruzi Əliağa oğlunun, İbrahimov Ayaz Sultan oğlunun, Novruzlu Ümid Bahadur oğlunun, Məmmədəliyev Saday Rza oğlunun, Babayev Şamil Baloğlan oğlunun, Dünyamalıyev Ceyhun Zeynal oğlunun, Tağıyev Azər Kamil oğlunun, Məmmədov Kəmaləddin İsrail oğlunun, Əsgərov Təbriz Çapay oğlunun, Mirzəyev Aslan Məqsud oğlunun, İbrahimov Qurban Namiq oğlunun və Yüzbaşyev İsmayıl Fəzayıl oğlunun üçrəngli bayrağımıza bükülmüş cənazələri hərbçilərin müşayiəti ilə mərasim yerinə gətirildi.

Şəhidlərimizin xatirəsi bir dəqiqəlik sükutla yad edildi.

Ali Məclisin Sədri şəhidlərin xatirəsinə ehtiramını bildirdi.

Naxçıvan Əlahiddə Ümumqoşun Ordunun əsgərləri tərəfindən yaylım atəşi açıldı.

Sonra “Qurani-Kərim”dən ayələr oxundu, şəhid cənazələrinin önündən keçildi.

Şəhidlərin cənazələri doğulduqları şəhər və kəndlərə yola salındı.

Ali Məclisin Sədri şəhidlərin ailə üzvləri ilə görüşərək onlara başsağlığı verdi.

Vətənpərvərlik hər bir insanın daxilindəki ali hissdir. Vətənə xidmətdə isə bu hissdən böyük heç nə yoxdur. Buna görədir ki, oğullarımız torpaq uğrunda mübarizəyə ölümün gözünə dik baxaraq yollandılar. Böyük qəhrəmanlıq və şücaət göstərməklə şəhidlik zirvəsinə yüksələrək azad edilmiş torpaqlarımızda Azərbaycan bayrağını dalğalandırdılar. Vətən uğrunda canlarından keçənlər isə əbədi yaşayacaqlar.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

# Qələbəmizin müjdəçisi şəhidlər

***Azərbaycan tarixinin elə bir dövrünə şahidlik edirik ki, illər sonra da bu qələbə sevincini elə bu cür anacaq, elə bu cür xatırlayacağıq. Bu qələbəni biz elə-belə qazanmadıq. Zərrə-zərrə, qram-qram, güc, birlik, mübarizə, həmrəylik, iradə, inam, qətiyyət göstərərək əldə etdik***.

Bu tarixi qələbəyə qədər nələr çəkdik, nələrə şahid olduq bunu bizdən yaxşı kimsə bilməz. İllərin bir yığın çətinlikləri, çıxılmazlıqları vardı ötən illərimizdə. Qonşu dediklərimiz, ölkəmizdə yaşamağa izin verdiklərimiz, süfrəmizi paylaşdıqlarımız, tarixin terrorist kimi tanıtdığı ermənilərin ikili oyunlarını, bəd əməllərini pərdələyərək həyata keçirdiyi o müşküllü illər. Həm də ağırlaşdırılmış şərtlərlə, həyatlar bahasına başa gələn o həsrətli illər. Bu illərdə öz əzəli torpaqlarından məhrum edilən, evlərindən-eşiklərindən didərgin salınan, ömür payları düşmən işgəncəsinə məruz qalaraq əllərindən alınan, övladları gözləri qarşısında diri-diri yandırılan, həyatları məhv edilən soydaşlarımızın haqq səsini beynəlxalq qurumlara, dünya dövlətlərinə çatdırsaq da, heç nəyə nail ola bilmədiklərimiz bizi bu illər ərzində təkcə bir ümidlə ayaqda tutdu – qələbə ümidi, zəfər inamı ilə.

44 gün gedən döyüşlərdə biz düşmənlərdən o illərin intiqamını aldıq. Ədalətin birliklə, mübarizə ilə qazanıldığını göstərdik. Ordumuzun gücünü dünyanın bütün ölkələrinə nümayiş etdirdik. İqtisadi gücümüzün, potensial imkanlarımızın mövcudluğunu gözlər önünə sərgilədik. Beynəlxalq birliklərin diqqət və nəzərlərini haqqa yönləndirdik. İsmarıc verdik ki, bizi masada gözləməyə məcbur etdiyiniz və nəticəsiz qalan qətnamələriniz, bəyanatlarınız, konvensiyalarınız mübarizə ilə qazanıldı. Torpaqlarımızı işğalçılardan azad edən, igidliklə fərqlənən oğullarımız tarix meydanında ad qazandılar, illər sonra işğalçıların zəbt etdiyi torpaqlarımızı sinələrini sipər edərək geri aldılar. Ölümü heçə sayıb mərd köçdülər, bayrağımızı kökslərində daşıyıb azad olunmuş torpaqlarımızda ən uca zirvələrə sancdılar. İşğaldan azad olunaraq ard-arda qazanılan Vətən torpağımızın üstündə şəhid qanları var, mərd oğulların şücaəti yaşayır. Vətən və millət yolunda canından keçməyə razı olan oğullarımızın fəth etdiyi ən yüksək, şərəfli zirvədir şəhid olmaq. Çünki qərinələr, əsrlər keçməyinə baxmayaraq, xalq tərəfindən unudulmayan insanlardır şəhidlər. Tarixboyu millətləri zəfərdən-zəfərə aparan səbəb də Vətənə xidmət etmək və şəhid olmaq arzusu olub. Biz bunu uzun illər arzu etmişik. Torpaq uğrunda şəhid olaq, amma zəfər qazanaq. Ona görə ki, şəhidlik yüksək müqəddəs amaldır, ali məqamdır. Canlarından keçməklə xalqın qəhrəmanlıq dastanını, azadlığını canı ilə qazanıb qanı ilə yazmaqdır şəhidliyin alilik məqamı. Məhz onların canı və qanı hesabına qazandıqları azadlıq və müstəqillik xalq tərəfindən heç vaxt unudulmur. Ona görə ki, şəhidlər xalqın kimliyini, mənliyini qoruyan insanlardır. Özü də bir xalq qəhrəmanı olaraq zəncirləri qıraraq, zülmətləri yararaq, xalqı işıqlı sabaha aparan, ölümləri ilə ölməzlik qazanan əbədiyyətə qovuşmuş bəxtiyar insanlardır.

II Qarabağ savaşında, xüsusilə seçilən oğullar sırasında Naxçıvan igidləri də qəhrəmanlıqları ilə tarixi yaddaşlarımıza daimi həkk olundu. Qələbə zəfəri ilə adı tarixə qızıl hərflərlə yazılan Vətən oğullarımız – şəhid olan hərbi qulluqçularımız Qurbanov Xansu Elsevər oğlu Naxçıvan şəhərində, İsmayılov Əmrah Xudaverdi oğlu, İbrahimov Ruzi Əliağa oğlu Şərur şəhər Şəhidlər xiyabanında, Tağıyev Azər Kamil oğlu Kəngərli rayonunun Şahtaxtı kəndində, Məmmədov Kəmaləddin İsrail oğlu, Əsgərov Təbriz Çapay oğlu, Mirzəyev Aslan Məqsud oğlu həmin rayonun Xok, İbrahimov Qurban Namiq oğlu Qabıllı, Yüzbaşyev İsmayıl Fəzayıl oğlu Böyükdüz kəndlərində, Novruzlu Ümid Bahadur oğlu Babək rayonunun Babək şəhərində, İbrahimov Ayaz Sultan oğlu həmin rayonun Məmmədrza Dizə kəndində, Dünyamalıyev Ceyhun Zeynal oğlu Culfa rayonunun Culfa şəhərində, Babayev Şamil Baloğlan oğlu həmin rayonun Camaldın kəndində, Məmmədəliyev Saday Rza oğlu Ordubad rayonunda – Darkənddə son mənzilə yola salındılar. İzdihamlı mərasimdə çıxış edənlər bugünkü tarixi qələbəmizi məhz döyüş meydanında min bir şücaət göstərərək Vətən torpaqları uğrunda canlarından keçən şəhidlərimizin ruhuna borclu olduğumuzu bildirdilər. Qeyd olundu ki, zəfər tarixini öz qanları ilə yazan bu igid gənclərimizin döyüş yolu hər bir Azərbaycan gənci üçün əsl vətənpərvərlik, rəşadət nümunəsidir. Belə igidləri olan xalq heç bir zaman məğlub olmaz. Şəhidlərimizin ruhuna dualar oxunub, yaylım atəşi açılıb, üçrəngli bayrağımız şəhidlərin doğmalarına əmanət edilib.

Bu ilin 10 noyabrı ən yeni zəfər tarixi kimi gələcək nəsillərə çatdırılacaq, ölkələrə nümunə kimi birliyimizin vahidliyindən danışacaq. Yüksək mənəviyyatla, heyranlıqla xatırlanacaq tariximizin qələbə sevdasını nəsillərimiz fəxarətlə anacaq. Yada salacaq ən yeni tarixin gedişatını qanımızla, canımızla necə dəyişdiyimizi. Söz açacaq torpaqlarımızın qanla yazılan qələbə zəfərlərinin parlaq səhifələrindən, qələbə müjdəçisi şəhidlərindən...

**✍ Türkan HÜSEYNLİ**

# Tikinti-quraşdırma işlərinin əksəriyyəti başa çatdırılıb

***Ordubad şəhərindən 7 kilometrlik məsafədə yerləşən Nüsnüs kəndinin özünəməxsus təbii gözəlliyi var. Bu günlər aparılan yenidənqurma işləri isə bu yaşayış məntəqəsinin simasını daha da gözəlləşdirməkdədir.***

414 şagird yerlik olacaq məktəb binasında müəllim və şagirdlərin ixtiyarına geniş və işıqlı 23 sinif otağı, kimya, biologiya və fizika laboratoriyaları, hərbi kabinə, 2 kompüter, 2 elektron lövhəli sinif, şahmat və müəllimlər otaqları, kitabxana, bufet, yenidən inşa olunan idman zalı, açıq idman qurğuları veriləcək. Binada müasir istilik sistemi quraşdırılacaq.

Burada inşa olunan kənd mərkəzində inzibati ərazi dairəsi üzrə nümayəndəlik, ATS, poçt, bələdiyyə, Yeni Azərbaycan Partiyası Ordubad Rayon Təşkilatının ərazi ilk təşkilatı, mədəniyyət evi, kitabxana, baytarlıq və polis sahə məntəqələri, həkim ambulatoriyası üçün müasir şərait yaradılacaq. Həkim ambulatoriyası binanın birinci mərtəbəsində yerləşəcək.

Kənd mərkəzinin yaxınlığında inşa edilən xidmət mərkəzində mağaza, bərbərxana, ət satışı dükanı və gözəllik salonu fəaliyyət



göstərəcək.

Bu tədbirlərlə yanaşı, yaşayış məntəqəsinin kənddaxili yolları da asfaltlaşdırılıb, Aşağı Əndəmic kəndindən Nüsnüsədək olan avtomobil yolu isə əsaslı surətdə yenidən qurulmaqdadır. Yolun üzərindəki körpülər də yenilənib. Ordubad şəhərindən Yuxarı Əndəmic kəndinə qədər olan yol isə təmir olunaraq çalalar doldurulub, ehtiyac olan yerlər asfaltlaşdırılıb.

Həyata keçirilən quruculuq ünvanlarından Yuxarı Əndəmic kəndinə də pay düşüb. Bu yaşayış məntəqəsində kənd və xidmət mərkəzləri inşa olunmaqdadır. Bu ünvanda da tikinti-quraşdırma işləri, demək olar ki, tamamlanıb, hazırda binaların daxilində son tamamlama işləri həyata keçirilir.

**Abbas SEYİD**

***XX əsrin 80-ci illərinin ikinci yarısında mənfur ermənilərin heç bir sağlam təxəyyülə sığışmayan “böyük Ermənistan” ideyasını həyata keçirmək üçün başladıqları, 30 ilə yaxın davam edən Azərbaycan-Ermənistan münaqişəsi Azərbaycanın dilbər guşələrindən biri Şuşadan başlamışdı, elə Şuşa ilə də başa çatdı. 1989-cu il Şuşanın, ümumiyyətlə, Qafqazın nadir sərvətlərindən olan, qeyri-adi flora və faunaya malik qədim Topxana meşəsinin qırılması erməni vandallığının çox “adi” və “sadə” detallarından imiş, sən demə. Sonralar bu münaqişənin elə Şuşa ətrafında daha da şiddətlənməsi, ermənilərin Şuşaya gələn su kəmərini partlatmaq, avtobus və maşınları atəşə tutmaq, Ağa körpüsünü partlatmaq yolu ilə şəhərin ölkəmiz ilə əlaqələrini kəsmələri, blokadaya almaları münaqişənin ilk günlərindəcə diqqətimizi ermənilərin başlıca hədəfinin məhz Şuşa olmasına yönəltməli idi. 1992-ci ilin may ayında Şuşanın işğalı, əslində isə ilhaqı quşqonmaz sıldırım qayaların başında, dağlar arasında məhz müdafiə məqsədilə yaradılan, əsrlərdir, dövlətçiliyimizin toxunulmazlıq, fətholunmazlıq rəmzinə çevrilən, Qarabağın tacı olan Şuşanın itirilməsi ilə ermənilər bütün Yuxarı Qarabağı zəbt etdilər.***



# Tarixi ədalətdən doğan zəfər və səadət günəşi

*Səndə vardır başqa lətafət, Şuşa!*

Bu Azərbaycan incisinin onilliklərlə yağı tapdağında qalması Azərbaycanın iradəsini sarsıtmışdı. İllər sonra, 2020-ci il sentyabr ayının 27-də Azərbaycanın ermənilərin artıq çoxdan həddini aşmış təxribatlarını dəf etmək məqsədilə öz torpaqlarını işğaldan azad etməsi uğrunda apardığı Vətən müharibəsinin həlledici zirvəsinin, zəfər möhürünün məhz Qarabağ xanlığının tarixi paytaxtı Şuşanın azad edilməsi ilə qoyulması da təsadüfi deyildir. Azərbaycan tarixi qələbəsini onun üçün çox cəhətləri ilə toxunulmazlıq, müqəddəslik rəmzi olan Şuşa yüksəkliyindən, Şuşa yüksəlişindən bəyan etdi, xalqımız və dövlətçiliyimiz üçün əziz tarixi gündə – Dövlət Bayraq Günündə işğalda olan 71 kənd, 1 qəsəbə və 8 strateji yüksəkliyin azad edilməsi düşməni ölümcül məğlub etdi. Şuşa qələbəsinin mahiyyətinin böyüklüyünü, Ali Baş Komandanın bu qələbəni Fəxri xiyabanda ümummilli liderimiz Heydər Əliyevin xatirəsinə ehtiram bildirməklə Azərbaycanın müstəqilliyi, ərazi bütövlüyü uğrunda mübarizələrimizin rəmzi olan Şəhidlər xiyabanından elan etməsi bir daha təsdiqlədi.

Şuşa nadir landşaftı, qeyri-adi təbiəti, əsrarəngiz gözəllikləri, dərdlərə dərman, büllur qədər saf havası, mərcan bulaqları, başlıcası isə başdan-başa Azərbaycan mədəniyyətini, tarixini sərgiləyəcək açıq səma altında muzey olması ilə tarixən ermənilərin iştah dişini qıcadığı bir şəhər olub. 1750-ci ildə Qarabağ xanı Pənahəli xan Cavanşirin məhz xanlığı düşmən hücumlarından qorumaq məqsədilə Qarabağın səfalı guşəsində, üç tərəfdən sıldırım qayalarla əhatə olunmuş dağ yaylasında bünövrəsini qoyduğu, yaradıcısının şərəfinə əvvəllər “Pənahabad”, sonralar isə “Şişə”, “Şuşa” adlandırılan bu qala özü qədər Azərbaycandır, millilikdir. Şişuclu dağlar əhatəsində başı göylərə yüksələn şəhər Pənahəli xan və İbrahimxəlil xan tərəfindən yaradılan qədim və orta əsrlərin unikal şəhərsalma nümunəsini yaşadırdı özündə. Şuşa şəhəri, bəlkə də, toxunulmaz olduğu üçün tarixin müxtəlif mərhələlərində daha çox istilaçıların hədəfinə çevrilib ki, bunların da ən dəhşətlisi ermənilərin gizli və ya aşkar qəsbkarlıqlarıdır. İran şahı Ağa Məhəmməd şah Qacar 1797-ci ilin yazında ikinci dəfə Qarabağ xanlığına yürüş və bu qədim yurd yerini işğal edən zaman bir qrup erməni nəyin bahasına olursa-olsun, Qarabağı Rusiyanın tərkibinə daxil etdirib bu yerlərdə erməni məlikliklərı yaratmaq niyyətlərini həyata keçirməyə çalışmışdı. 1918-1920-ci illərdə ermənilər Şuşanı işğal etmək üçün bütün vasitələrə əl atmışdılar. Tarixçilər qeyd edirlər ki, 1920-ci il martın 22-də – Novruz bayramı günündə Şuşa şəhəri, Şuşa qəzası, eləcə də onunla qonşu olan digər qəzalarda eyni vaxtda ermənilər qiyam qaldırmış, Şuşadakı Azərbaycan Ordusunun qəhrəmanlığı sayəsində hücum tezliklə dəf edilmişdi. Şuşa XX əsrdə 3 dəfə erməni təcavüzünün qurbanı olub. 1905-1907-ci illərdə hücuma məruz qalıb və yandırılıb. 1920-ci ildə şəhərin xeyli hissəsi daşnaklar tərəfindən dağıdılıb. Və nəhayət, 1795-ci ilin iyulunda 33 gün inadlı müqavimət göstərərək Qacarın 85 minlik qoşununa təslim olmayan Şuşa 1992-ci ilin may ayında vaxtilə rusların zorla gətizdirib məskunlaşdırdığı, öz imperiya siyasətini yürütməkdə əlaltı vasitə kimi istifadə etdiyi aciz və qorxaq ermənilərə peşkəş edildi. Ermənilərin öz gücü hesabına heç bir zaman işğal edə bilməyəcəkləri Şuşa böyük şairimiz Cavidin təbirincə desək, idrakı sönük başçıların qəflətinin, yəni bir para şəxslərin hakimiyyət hərisliyinin, milli birlik və həmrəylik əvəzinə ayrı-ayrı vəzifəhərislərin şəxsi mənafelərinə xidmət edən silahlı dəstələşmə yaranmasının qurbanına çevrildi.

Şuşanı və ümumiyyətlə, Qarabağımızı ərazi baxımından itirməkdən çox-çox əvvəl düşmənlərimiz Azərbaycanın bu dilbər guşəsini məqsədyönlü şəkildə, mərhələ-mərhələ erməniləşdirmə siyasəti aparmaqla doğma torpaqlarımızı mənən itirməyimizə nail olmuşdu. Hər kəsə yaxşı bəllidir ki, ümummilli liderimiz Heydər Əliyev Sovet İKP MK-nın Siyasi Bürosunda fəaliyyəti zamanı Qarabağ probleminin ermənilərin xeyrinə həll edilməsinə hər vəchlə mane olmuşdu. Bu məsələnin ayrıca siyasi təhlili tədqiqat mövzusu olduğunu nəzərə alaraq ulu öndərin hələ sovet “beynəlmiləlçiliyinin”, “xalqlar dostluğunun” tüğyan etdiyi bir vaxtda – 70-ci illərdə düşmənin Qarabağa qarşı mənəvi terrorunun qarşısının alınmasında göstərdiyi əvəzsiz xidmətlərə diqqət çəkmək istərdim. Yenə də elə Şuşanın timsalında bunları xatırlatmaq yerinə düşər. Dahi rəhbər tarixi abidələrlə zəngin olan Şuşadakı bu maddi mədəniyyət nümunələrinin sovet hakimiyyəti illərində ermənilər tərəfindən dağıdılması hallarının qarşısını almaq üçün 1977-ci ildə şəhərin qoruq-şəhər statusu almasına nail oldu. Burada Üzeyir Hacıbəyovun heykəli qoyuldu, muzeyi açıldı, Natəvanın, Bülbülün heykəlləri ucaldıldı. Ulu öndərin təşəbbüsü ilə 60-cı illərin ortalarında böyük şairimiz, Qarabağ xanının vəziri kimi siyasi fəaliyyət göstərmiş Molla Pənah Vaqifin 250 illik yubileyi dövlət səviyyəsində qeyd olunmaqla yanaşı, şairin laqeydlik üzündən itib-batmaqda olan məzarının yeri müəyyənləşdirildi, üzərində yüksək Şərq memarlığı üslubunda əzəmətli məqbərə ucaltmaqla yenidən xalqın ziyarətgahına çevrildi. Yəqin ki, foto və videokadrlardan çoxumuz xatırlayırıq ki, 1982-ci il yanvar ayının 14-də – qarlı-çovğunlu bir qış günündə – məqbərənin açılış mərasiminə ulu öndər öz rəhbər nüfuzu və tələbkarlığı, qətiyyəti ilə Azərbaycanın ovaxtkı elm, mədəniyyət, incəsənət xadimlərinin çoxunu Şuşanı ziyarət etməyə, böyük Vaqifin “hüzuruna” gəlməyə sövq etmişdi. Ümumiyyətlə isə həmin dövrdə Şuşada bir çox tarixi abidələr yenidən bərpa olunub. Bütün bunlar Şuşanı daha da zənginləşdirməyə, onun tarixini daha da çox öyrənməyə, təbliğ etməyə xidmət edirdi. Ümummilli liderin rəhbərliyi ilə Şuşada 1920-ci ildə ermənilər tərəfindən yandırıldıqdan sonra yaranan xarabazarlığın izi ortadan qaldırıldı, bir Azərbaycan şəhəri kimi yenidən dirçəldildi. Burada turist bazası, 2 mehmanxana, Azərbaycan Xalçası və Xalq Tətbiqi Dövlət Muzeyinin Şuşa filialı, Şuşa Dövlət Dram Teatrı, Şərq Musiqi Alətləri Fabriki, Dövlət Rəsm Qalereyası, Uşaq Sağlamlıq Məktəbi tikildi. Görkəmli dövlət xadimi böyük uzaqgörənliklə Şuşanı ümumittifaq səviyyəli kurort şəhərinə çevirdi, bununla Qarabağın, Şuşanın milli mənsubluğunu, buradakı qədim tariximizi, zəngin mədəniyyətimizi, incəsənətimizi təbliğ etməyə nail oldu...

*Qarabağı zəbt etməklə, zorla qarabağlı olmaq olmaz*

İşğallar müəyyən tarixi proseslər, ictimai-siyasi situasiyalar, zamanın təbəddülatları üzündən baş verir. Bu onilliklər ərzində Azərbaycanın isməti, ləyaqət rəmzi olan Şuşanı itirməyimiz bütün Qarabağa bərabər ağır məğlubiyyətimiz olub. Ürəyimizin ən göynərtili yarası Şuşa həsrəti olub. Hərbi strateji əhəmiyyətliyindən də çox milli-mənəvi dəyərliliyi ilə yandırıb bizi. Bəlkə də, ən çox ona görə ki, Şuşanın mövqeyi onu müdafiə etməyə, qoruyub saxlamağa daha çox imkan verdiyi halda bu alınmaz qalamız laqeydliyin, xəyanətin qurbanı oldu. 1992-ci il mayın 7-dən 8-nə keçən gecə şəhər dörd bir tərəfdən şiddətli atəşə tutulub. Əvvəllər Şuşa taborunda 1500-ə yaxın döyüşçü olduğu halda hücum vaxtı onların çoxu şəhərdən çıxarılmış, vur-tut qalan 500 nəfər (200 könüllü döyüşçü isə silahı ilə şəhəri tərk etmişdi) ermənilərin tərkibində, hətta xaricdən gətirilmiş muzdluların da döyüşdüyü 11 min canlı qüvvədən ibarət silahlı birləşmələrə qarşı qeyri-bərabər döyüşdə, ölüm-dirim savaşında sonadək inadlı müqavimət göstərmiş, lakin şəhər azğın işğalçıların qarşısında tab gətirə bilməmişdi. May ayının 7-dən Şuşaya daxil olmuş erməni qoşun hissələri may ayının 9-na – gecə saatlarına qədər şəhərin tamamilə boşaldılmasına inanmamış, bunun hər hansı bir pusqu olduğundan, küçə döyüşləri ilə üz-üzə gələcəklərindən ehtiyat edərək şəhərdə meydan sulamağa cürət etməmişdilər...

Qovrula-qovrula, göynəyə-göynəyə, yana-yana həsrətini çəkdiyimiz müqəddəs torpağımız – qədim qala şəhərimiz Şuşaya illərlə qovuşa bilməmişik. Bizim əlimiz, ünümüz yetməyəndə Vətən övladına sadiqlik Şuşanın əzəmət, vüqar dolu qala çiyinlərinə düşüb. Bu illər ərzində bağrına daş basaraq dünyanın incisi xarıbülbülünü yadların murdar nəfəsindən gizlədib, İsa bulağının zümzüməsini içində boğub. “Qarabağın şikəstəsi” nalə-fəryad qoparıb, “Sona bülbüllər”i fəğan edib. İgidlər oylağı Cıdır düzünün şahə qalxan bədöy Qarabağ atları həsrət qalıb igidinə, ərəninə. Tarix sübut edib ki, Qarabağa, Şuşaya qol gücünə, zor gücünə sahiblənənlərdən fitrətən, irsən, mənən qarabağlı, şuşalı olmaz. Bu illər ərzində incə ruhun, şeiriyyətin, mədəniyyətin beşiyi olan Şuşada nə gözəlliklər aşiqi, Şuşasız ruhu hər gün çarmıxa çəkilib edam edilən Vaqiflər, nə ağıl və zəkada, vətənpərvərlikdə fransız Düməni mat qoyan incə ruhlu, şair qəlbli Natəvanlar, nə də ki şair, alim, sənətkar kimi Azərbaycanı hələ sağlığında dünyada şöhrətləndirən Nəvvablar yetişib. Şuşasız şuşalılardan yeni “Bəxtsiz cavan”lar yazacaq Əbdürrəhim bəy, “Durnalar”ı yurdundan perik düşən Zakir, uşaqlar üçün günün dəhşət dolu “Qorxulu nağıllar”ını yaradan ermənilərə “həsəd aparacaq” Süleyman Sani, ermənilərin başıboş başçılarından əsrin yeni “Dələduz” məzhəkələrini yaradacaq Nəcəf bəy, yurdunun “Qan içində” boğulmasına tab gətirə bilməyəcək Yusif Vəzir gəlməyib yer üzünə. Şərqin konservatoriyası, musiqi beşiyimiz Şuşada “Koroğlu”nu cövlana gətirən, musiqinin allahı Üzeyirlər, səsi ilə bülbülü mat qoyan, dağları dilə gətirən Cabbar Qaryağdıoğlular, Bülbüllər, Xan Şuşinskilər əvəzinə şeir-sənət məclisləri, muğamlarımızla bəzənən, ülviləşən Cıdır düzümüzdə mədəniyyətdən, insanlıqdan xali vəhşilər əyyaşlıq edib, yallı gedib. Xan qızı, Ağabəyim ağa kimi xeyirxah, ülvi niyyətli, Vətən sevgili, əsilzadə şuşalıların qurub-yaratdığı, göz bəbəyi kimi qoruduğu Şuşada 300-ə yaxın dini, tarixi və mədəni abidəmiz məhv edilib, talan-təhqir olunub. Ulu Yaradanın ən ağır cəzası, nifrin sayılan mənəviyyatsızlığa düçar olunmaqla, bütün ali insani dəyərlərdən, humanist hisslərdən məhrum edilməklə, vəhşi xislətliliklə lənətlənən ermənilər bəşər mədəniyyətinin qənimi olduqlarını ömürlük cəza kimi çəkəcəklər. Biz isə Qarabağsız, Şuşasız qalsaq da, o sevgi, o nisgil ilə MÜBARİZ ruhlu, POLAD iradəli Vətən oğulları böyütmüşük, ümidimizlə yaşamışıq, ümidimizi yaşatmışıq... Və gün gəldi, o oğullarımız Qarabağımızın baş tacı Şuşamızı qaytarmaqla, bütünlükdə, Qarabağımızı bizə bəxş etdilər, 30 illik həsrətimizə, nisgilimizə son qoydular. Bu əsrarəngiz dağlar gözəli üçrəngli bayrağımızın al şəfəqləri altında başındakı dumanı-çəni bir dəfəlik dağıtdı, ***“nəinki Azərbaycanın, bütün Qafqazın incisi”*** kimi adını tarixə həkk etdi.

*Vüsalın hər kəsə səadət, Şuşa!*

Böyük Qələbə müjdəli Şuşa zəfəri, döyüşləri haqqında hələ çox yazılacaq, çox deyiləcək. Anamız Azərbaycanımızın vurğunu, Vətən sevdalısı böyük Səməd Vurğunun təbirincə desək, vüsalı hər kəsə səadət olan Şuşa uğrunda döyüşlər milli heysiyyətimizi, tarixi qəhrəmanlıq ruhumuzu, rəşadətimizi bir daha ortaya qoydu, “döyüşə bilməyən”, “aciz”, “məğlub” xalq olmadığımızı dünyaya sübut etdi. Dəniz səviyyəsindən 1400-1800 metr yüksəklikdə olan, alınmaz qala sayılan Şuşaya xüsusi təyinatlılarımız gecə saatlarında ley kimi şığıdılar. Dünya mediası, Rusiya, Fransa mətbuatı heyrətamizliklə qeyd edir ki, Azərbaycan əsgərinin şəhəri üzüyuxarı



dırmanaraq, praktik olaraq əlbəyaxa döyüşlər nəticəsində, heç bir pilotsuz uçuş aparatı və ya müasir texnologiya olmadan nəzarət altına alması, dörd tərəfdən aramsız mərmi, güllə, mina yağmasına baxmayaraq, yaralıları, şəhidləri də döyüş meydanında qoymaması əsl Vətən sevgisidir. Bəli, bu, əsl Vətən sevgisi idi. Qarabağın, Şuşanın işğal tarixi orada döyüşənlərin əksəriyyətinin yaşından yuxarı idi. Yəni bu gün Qarabağı, Şuşanı xilas edən oğulların çoxu o torpaqlarda ola bilməmişdi. Lakin bir nəslin ən ideal şəkildə – ruhuyla, qanıyla, dastanı, laylası, oxşaması, bayatısı, ağısı, muğamıyla ötürə biləcək Vətən sevgisi idi onları mübarizədən qalib çıxaran. Bu gün bu qəhrəmanlıqlarımızı heyranlıqla seyr edənlərə vaxtilə böyük Cavidimizin türk xaqanı İldırım Bəyazidin dilindən dediyi “Çal!.. Çal!.. Əvət, bəxtiyar çoban, çal!.. Nə Sivas kimi şəhərin əlindən gedib, nə də Ərtoğrul kimi oğlun... “kəlmələrindəki ağrını, faciəni xatırlatsaq, bəlli olar ki, qəhrəman oğullarımıza bu döyüş əzmini, iradəsini Qarabağda tapdanan milli heysiyyətimiz, mənliyimiz, izzəti-nəfsimiz, ləyaqətimiz, günahsız qurbanlar, şəhidlərimizin qisas çağırışı, murdar tapdağı altında inləyən torpağın hayqırışları, çırpıntıları vermişdi.

Ölkə Prezidentinin ***“Bildirməliyəm ki, naxçıvanlılar da İkinci Qarabağ müharibəsində digər bütün bölgələrdən olan vətəndaşlar kimi fəal iştirak etdilər”*** deməsi isə tarixin bütün sınaqlarından üzüağ çıxan, ümummilli liderimizin ətrafında sıx birləşərək, əl-ələ, çiyin-çiyinə, kürək-kürəyə verərək qədim və ulu diyarımızı erməni caynağından xilas edən naxçıvanlılar üçün qürur, iftixar mənbəyidir. Azərbaycan xalqının tarixi qələbəsi isə ***“Mən bu gün, eyni zamanda ulu öndər Heydər Əliyevin məzarını ziyarət etdim, onun ruhu qarşısında baş əydim. Ürəyimdə dedim, xoşbəxt adamam ki, ata vəsiyyətini yerinə yetirdim. Şuşanı azad etdik! Bu, böyük Qələbədir! Şəhidlərimizin, ulu öndərin ruhu şaddır bu gün! Gözün aydın olsun, Azərbaycan! Gözünüz aydın olsun, dünya azərbaycanlıları!”*** – deyən dövlət başçımızın timsalında bir xalqın ulu əcdadları qarşısında üzağlığı, Vətəninə, tarixinə, keçmişinə, mənəvi varidatına layiqli sahiblik hissindən, ulu sələflərinin şərəfinə layiq xələflik duyğusundan doğan qürurdur.

*Dünya tarixi gerçəklik və yeni reallıqla hesablaşır: Qarabağ Azərbaycandır! Naxçıvan Azərbaycandır!*

Məhz Azərbaycan Ordusunun hərbi rəşadəti, müharibə meydanındakı qələbəsi nəticəsində siyasi qələbə təmin edildi, Azərbaycan hadisələri, prosesləri anbaan, ildırım sürətilə öz xeyrinə dəyişərək zəfəri yaxınlaşdırdı. Bu qələbə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin öz siyasi manevrləri, diplomatik danışıqlarda, media müsahibələrində, xalqa müraciətlərində apardığı qətiyyətli, sərrast hədəfləmiş, güclü təsirə malik siyasi mübarizəsinin bəhrəsi idi. 44 gün ərzində, nəinki 30 ilə yaxın zaman çərçivəsində nail ola bilmədiyimiz, mübaliğəsiz demək olar ki, əsrlərə,

Ardı 3-cü səhifədə

minilliklərə sığmayan qələbə qazanıldı. Mənfur Ermənistan diz çökdürüldü, gecə ilə hərbi kapitulyasiya sənədini imzalamağa məcbur oldu. Onların başsız baş nazirləri isə təslim aktını imzalayarkən üzə çıxmağa belə, cəsarət etmədi. Bu gün qaniçən, cəllad, vəhşi xislətinin aqibəti olaraq məğlubiyyəti, itkiləri, cəsədləri ilə çıldıran erməni toplumu isə Paşinyanı ittiham etməkdənsə, günahkar qismində onu axtarmaqdansa "hər xalq özünə layiq lider yetişdirir" reallığı ilə barışmalı, səbəbləri millət olaraq öz şüurundakı, psixologiyasındakı eybəcərliklərdə axtarmalıdır. Azərbaycanın öz haqq işini döyüş səngərində də, danışıqlar masasında da sonadək mübarizliklə, əzmkarlıqla müdafiə etməsi dünyanın mövqeyini, baxış tərzini, siyasətini tamamilə dəyişdi. İmzalanan üçtərəfli bəyannamə isə qalan ərazilərimizi də siyasi yolla işğaldan azad etməklə mühüm hərbi-siyasi əhəmiyyət daşıyır. Bu mühüm tarixi sənəd Qarabağın status məsələsini birdəfəlik ləğv etməklə, Naxçıvanın ərazi blokadası problemini aradan qaldırmaqla hər hansı gələcək problemin yaranmasına son qoymuş oldu. Prezident cənab İlham Əliyev xalqa müraciətində demişdir: ***"Digər önəmli məsələ, xüsusilə qeyd etmək istəyirəm ki, Naxçıvan Muxtar Respublikasının Azərbaycanın əsas hissəsi ilə əlaqəsi bu sənəddə təsbit edilir. Həm bütün kommunikasiyaların, yolların açılması, eyni zamanda burada göstərilir ki, yeni nəqliyyat kommunikasiya infrastrukturu yaradıla bilər və yaradılmalıdır. Biz bunu əlbəttə ki, çox dəstəkləmişik. Deyə bilərəm ki, mənim təkidimlə bu bənd bu bəyanata salındı. Çünki birbaşa Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bu bəndin əlaqəsi yoxdur. Ancaq mənim təkidli tələblərim şadam ki, qəbul olundu. Beləliklə, Naxçıvan Muxtar Respublikasını Azərbaycanla, Azərbaycanın əsas hissəsi ilə quru yollarla birləşdirmə istiqamətində tarixi addım atıldı. Çünki mənfur düşmən 1990-cı illərin əvvəllərində və ondan da bir qədər əvvəl Naxçıvanı faktiki olaraq mühasirəyə almışdı. Bütün kommunikasiya xətləri kəsildi, çünki o vaxt Azərbaycanın əsas hissəsindən oraya enerji resursları ötürülürdü, faktiki olaraq Naxçıvan Muxtar Respublikası çox ağır vəziyyətdə qalmışdı. Eyni zamanda Ermənistan ərazisindən oraya hücumlar da edilirdi. Dəfələrlə demişəm, məhz ulu öndər Heydər Əliyevin cəsarəti və fəaliyyəti nəticəsində Naxçıvan işğal altına düşmədi. Erməni vandallarının belə planları da var idi".*** İllərboyu aparılan siyasət, muxtar respublika rəhbərinin gərgin fəaliyyəti, düşünülmüş qətiyyətli siyasi addımları nəticəsində blokada caynağından inkişaf, tərəqqi yoluna çıxmaqla xilas olan Naxçıvanın Azərbaycandan ərazi etibarilə ayrı düşməsi baxımından yaşadığı problemlərin həllinə, muxtar respublikamızın gələcək sosial-iqtisadi inkişafına, geostrateji əhəmiyyətliliyinin artırılmasına hesablanmış bir addımdır. Azərbaycanın digər bölgələri ilə yeni kommunikasiyaları yaranacaq Naxçıvan Türkiyə və bütövlükdə, Türk dünyası ilə də əlaqələndirici rol oynamaqla, müasir dünyamızda "Şərqin qapısı" tranzit əhəmiyyətliliyi ilə daha böyük iqtisadi-siyasi dəyər və nüfuza sahiblənəcək.

***Üfüqdən Qarabağı, Naxçıvanı, Gəncəsi, Bərdəsi ilə inkişaf etmiş, qalib, məğrur Azərbaycanın nurlu sabahı boylanır. Azərbaycanın dünyaya Günəş kimi doğduğu sabah! Tariximizi zəfər rənginə boyayan, keçmişindən görk alan, gələcəyi nura qərq olan sabah! Aydın sabahların, Qələbən mübarək, anam Azərbaycan!!!***

✍ **Mehriban SULTAN**
***Naxçıvan Muxtar Respublikasının Əməkdar jurnalisti***

## Naxçıvan dünən

# Bu yerlərdə qatarlar nə şərqdən qərbə gedir, nə də qərbdən şərqə...

Culfa avtomobil deposu... Qatarlar nə şərqdən qərbə hərəkət edir, nə də qərbdən şərqə. Depo işini dayandırdığı üçün regionun polad magistralları iflic olmuş, muxtar respublikanın şah damarı fəaliyyətdən qalmışdır. Bu hal nəinki Zaqafqaziyanın, hətta ölkənin iqtisadi həyatını diksindirmişdir. Yüz min tonlarla xalq təsərrüfatı yükləri yollarda tökülüb qalıb. Mallar xarab olur, günlərlə, həftələrlə nəzarətsiz qaldığı üçün vaqonlar taraş edilir.

Muxtar respublikanın iqtisadi həyatı daha çox pozulmuşdur. Yanacaq çatmaması üzündən avtomobil nəqliyyatı pis işləyir, material qıtlığından inşaatçılar boş dayanıb, sənaye müəssisələrinin əksəriyyəti məhsul istehsal etmir. Mağazaların vitrinləri bomboşdur, ərzaq tükənib. Dəyən iqtisadi ziyanın miqdarını hesablamaq mümkün deyil, mənəvi ziyanı hələ bir yana qalsın.

...Axırıncı dəfə – yanvarın 13-də isə maşinistlər Mehridə avtomat atəşinə tutulublar. Qərib İsmayılovun əyləşdiyi kabinənin qabaq şüşələrində 18 güllə yeri var. Maşinist hələ də xəstəxanadadır və çətin ki, bir daha sükan arxasına keçə bilə. Şüşələrini güllə dəlik-dəlik etmiş elektrovoz o vaxtdan depoda yatıb qalır. Elə həmin vaxtdan, yəni yanvarın 12-dən etibarən maşinistlər qəti tədbir görülməyincə yola çıxmamağı qərara alıblar. Erməni ekstremistlərin ultimatum xarakterli hədə-qorxuları kəsilmir, deyirlər ki, gərək Naxçıvanı aclıq içində boğaq. Moskvada oturanların çoxu isə ermənilərin təzyiqi altında yenə əvvəlki bayatılarını çağırır, "təqsir azərbaycanlılardadır", – deyib qərəzli iftiralar yayırlar. Niyyət aydındır: Azərbaycan dəmir yolunda hərbi vəziyyət yaratmağa can atırlar. Deyirlər ki, öz iyrənc niyyətlərinin bir qismini hərbçilərin əli ilə həyata




keçirmək, ələlxüsus, xaricdən göndərilən müasir silahları Ermənistana maneəsiz çatdırmaq istəyirlər.

...Coğrafiyada hər şey Qrinviçdən ölçüldüyü kimi, bu yerlərin də bütün məsafələri dəmir yolu ilə müəyyən edilir. Dəmir yolu muxtar respublika üçün hər şeydir. İqtisadiyyatından tutmuş siyasi, sosial və mənəvi həyatınadək hamısı onun ahəngdar işləməsindən asılıdır. Dəmir yolu respublikanın həyat yoludur. Onsuz, əslində, Naxçıvan da yoxdur. Bu mənada, dəmir yolu nəyin hesabına olursa-olsun işləməli, qatarlar gecə-gündüz qərbdən şərqə, şərqdən qərbə getməlidir. Kimin kimdə acığı, hayfı varsa, qisas almaq istəyirsə, qoy başqa yol seçsin, muxtar respublikanın, onun 300 minlik əhalisinin həyat yoluna toxunmasın. Əks-təqdirdə, daha böyük bəlalar, daha dəhşətli faciələr nəsibimiz olar...

**"Şərq qapısı" qəzeti**
**20 fevral 1990-cı il**



## və bu gün

# Dəmir yolu Naxçıvanın döyünən ürəyi idi...

## *Bu ürək 25 ildir ki, dəmir iradə ilə döyünür*

*Yazımı blokada Naxçıvanının ən ağır günlərini bizimlə burada yaşayan və fəaliyyət göstərən, siyasi nüfuzu və liderlik qabiliyyəti ilə naxçıvanlıları tarixin ən dəhşətli anından xilas edən ümummilli liderimiz Heydər Əliyevin həmin illərdə söylədiyi fikirləri ilə başlayıram:* ***"...Dəmir yolu işləmir. İndi bizim Azərbaycanla əlaqəmiz yalnız hava yolu vasitəsi ilədir. Buna görə də muxtar respublikaya yanacaq, ərzaq və başqa ləvazimatların gətirilməsi tamamilə məhdudlaşmışdır. Bütün bunlar isə son illər onsuz da dağılmış iqtisadiyyatın daha pis vəziyyətə düşməsinə səbəb olmuşdur".***

Bəli, 30 il bundan əvvəl 300 minlik əhalisi olan Naxçıvan Muxtar Respublikasında dəmir yolunun hərəkətinin dayandırılması ilə böyük bəlalar başlandı. Naxçıvanlılar olmazın çətinliklər ilə üzləşməli oldular. Burada, sözün həqiqi mənasında, həyat dayandı. Coğrafi ərazisinə görə sərt kontinental iqlimə malik olan Naxçıvanda elektrik enerjisinin, təbii qazın kəsilməsi, üstəlik də dəmir yolunun işləməməsi burada onlarla fabrik, zavod, müəssisənin fəaliyyətinin dayanması, yüzlərlə insanın iş yerini itirməsi ilə nəticələndi. Vəziyyət gündən-günə daha da pisləşməyə başladı. Muxtar respublikada ərzaq qıtlığı yarandı. Əhali çörəklə imtahana çəkildi. Bütün bunlar insanları həyatda qalmaq, yaşamaq uğrunda mübarizəyə sürüklədi. O illərin ən acı mənzərəsi bunlar idi: illərlə davam edən çörək, neft növbələri... Ərzaq talonları, soyuq, qaranlıq evlər, iş yerləri, işsizlik, üstəlik də sərhəd kəndlərimizin ermənilər tərəfindən atəşə tutulması, Sədərəkdə gedən müharibə, şəhidlərimiz...

Ulu öndərimiz həmin dövrdə Naxçıvana, muxtar respublikaya rəhbərlik etməsəydi, Naxçıvan da o zaman işğal olunan rayonlarımızdan biri olacaqdı. Eləcə də naxçıvanlılar blokada şəraitində məhv olacaqdılar. Lakin Ulu Yaradan Naxçıvana nə işğal taleyi yazıbmış, nə də naxçıvanlılara ağır blokada şəraitində məhv olmaq. Bütün bunlardan muxtar respublikanı xilas edən ulu öndər həm də blokada şəraitində Naxçıvanın inkişaf strategiyasını işləyib hazırladı. Qonşu dövlətlərlə müqavilələrin imzalanması blokadanın ilk illərində Naxçıvanın vəziyyətdən çıxması xarakteri daşıyırdısa, sonrakı illərdə



diyarımızın inkişafına hesablanmış addım idi.

1995-ci ildən ulu öndərimizin siyasi davamçısı cənab Vasif Talıbovun muxtar respublikanın rəhbəri kimi fəaliyyətə başlaması böyük Heydər Əliyevin Naxçıvanı əmin əllərə verməsini təsdiqləyən faktdır. Ölkədəki qarşıdurmalar, torpaqlarımızın ermənilərə satılması, Naxçıvanın blokadaya salınması siyasi arenada əvvəlcədən düşünülmüş və bir-birinin ardınca həyata keçirilən tədbirlər idi. Belə bir dövrdə Naxçıvanın taleyi hər adama etibar oluna bilməzdi. Naxçıvanın rəhbəri Naxçıvanı sevən və həmin dövrdə böyük Heydər Əliyevin Naxçıvan üçün planlarını həyata keçirməyə qadir insan olmalı idi. Çünki ulu öndər 1993-cü ildə Bakıya qayıdanda Naxçıvan blokadanın ən ağır günlərini yaşamağa davam edirdi.

Bəli, 30 il öncə dəmir yolu Naxçıvanın döyünən ürəyi idi. Zəngəzur mahalının ermənilərə verilməsindən sonra bu diyarın ölkəmizlə quru yolla əlaqəsi tək dəmir yolu idi. Onun dayanması muxtar respublika iqtisadiyyatını iflic etmiş, Naxçıvanda ümumi həyat ritmi öz məhvərindən çıxmışdı. Bir sözlə, Naxçıvanın ürəyi döyünmürdü. Lakin ötən 25 illik zamanın hər ili ayrı-ayrılıqda təsdiq etdi ki, möhkəm iradə, qətiyyət, dözüm, səbir, bir də idarəetmə qabiliyyəti bütün çətinliklərə qalib gəlmək anlamındadır.

Ötən 25 il necə başladı? Bunu 3 mərhələyə bölsək, birinci mərhələ blokada vəziyyətində yaşayan gərgin insanlarla səmimi münasibətin yaradılması ilə başlandı. İnsanlara ümid və inam verildi. Onlar hər şeyin irəlidə daha gözəl olacağına inanıb, böyük ümidlərlə yaşamağa başladılar. O ümid ki bir zərrəsi bir ömrə bərabərdir. Daha sonra böyük bir siyasət həyata keçirildi: şəhərlər, rayon mərkəzləri gözlədilər, bütün güc kəndlərə yönləndirildi. Nə üçün? Çünki kəndlinin torpağa bağlanması, əkib-becərməsi həlelik bu mərhələdə şəhərlinin də dolanışığı demək idi. Çünki fabriklər, zavodlar, istehsal müəssisələri işləmirdi. Beləliklə, 1992-ci ildən başlanan torpaq islahatı uğurla yekunlaşdırıldı. Torpaqlar qısa müddətdə sahiblərinə verildi, əkildi-biçildi, insanların məşğulluğuna çevrildi. Bu siyasətlə Naxçıvandan qonşu dövlətlərə işləmək üçün gedənlər geri qayıtdılar. Daha sonra təməli ulu öndərimiz tərəfindən qoyulan Naxçıvanın dirçəldilməsi ilə bağlı işlər ardıcıl şəkildə həyata keçirilməyə başlandı. Naxçıvana təbii qaz çəkilişləri başlanıldı və uğurla yekunlaşdırıldı. Sovet dönəmində təbii resursları ola-ola burada heç bir elektrik enerjisi istehsal edən stansiya yaradılmadığı halda, blokada Naxçıvanın qarşısında duran əsas vəzifə bu resursları gündəmə gətirmək oldu. Bu, ilk illərdə naxçıvanlıların qaranlıq günlərini aydınlatmağa xidmət edirdisə, bununla artıq istehsal müəssisələrinə, fabrik və zavodlara yeni həyat verilirdisə, bu gün həmin işin coğrafiyasının genişləndirilməsi Naxçıvanı elektrik enerjisi ixracatçısına çevirib.

Ulu öndərimizin Azərbaycanda başlatdığı quruculuq işləri blokada Naxçıvanını da qoynuna aldı. Bu iş də diyarımızda ucqarlardan başlandı. Nə üçün? Çünki şəhər və rayon mərkəzləri kəndlərimizlə müqayisədə həlelik gözləyə biləcək bir vəziyyətdə idi. 70 il gözdənuzaq könüldəniraq qalan kəndlərimizdə məktəblər uyğunlaşdırılmış binalarda yerləşirdi, yağış, qar sularını divarlarına çəkmiş siniflərə rütubətdən girmək mümkün deyildi. Kəndlərdəki xidmət təşkilatları taxtadan düzəldilmiş binalarda fəaliyyət göstərirdilər. Kənd yolları bərbad vəziyyətdə idi. Blokada Naxçıvanında kəndlərimizə yeni həyat bəxş edildi. İndi muxtar respublikanın ən ucqar kəndlərində universitet binaları görkəmində, hər cür şəraitə



malik məktəblər var. Quruculuq illərinin yeni infrastruktur layihəsi olan və sakinlərə səhiyyə, mədəniyyət, rabitə, poçt, baytarlıq və sair xidmətlərin mərkəzləşmiş qaydada həyata keçirildiyi kənd mərkəzləri var. Nəmlikdən keyfiyyətini itirmiş ərzaqların satıldığı uçuq-sökük mağazaların yerində xidmət mərkəzləri ucaldılıb. 15 dəqiqəlik yolu 1 saata gedib-gələn insanların abad yolu var. Artıq kənd sakinləri torpağı, sadəcə, əkmirlər, onlar göstərilən dövlət qayğısı ilə burada ailə, fermer təsərrüfatları, sahibkarlıq subyektləri yaradıblar.

İkinci mərhələdəki quruculuq prosesi muxtar respublikanın bütün şəhər, qəsəbə kəndlərini həm gözəlləşdirdi, həm insanların rahatlığına xidmət etdi, həm də əhalinin məşğulluğu xeyli təmin olundu. İctimai yaşayış, inzibati binalar, təhsil, səhiyyə, mədəniyyət müəssisələri, idman obyektləri, ticarət mərkəzləri,

*Ardı 4-cü səhifədə*

yollar, park və xiyabanlar, ən əsası isə bu qədim yurdun keçmişini təsdiq edən abidələrə yeni həyat bəxş olundu. Hələ birinci mərhələdən başlanan ağacəkmə bu mərhələdə 0,2 faizdən 20 faizədək artırıldı. Çünki blokadanın ilk illərində insanları ölməkdən xilas edən ağacları yenidən təbiətə qaytarmaq idi məqsəd. Bu dövrdə gənclər siyasəti önə çıxarıldı. Çünki muxtar respublikanın gələcəyi düşünülürdü hər zaman. Bunun üçün təhsilə böyük diqqət göstərildi, yeni məktəblər fonunda həm də həvəsləndirmələr həyata keçirildi, 500-700 bal toplayanlarla Ali Məclis Sədrinin görüşləri ənənəyə çevrildi. Universitetlərimiz ölkənin qabaqcıl ali təhsil müəssisələri arasında yer aldı. Səhiyyə inkişaf etdirildi, ali təhsilli həkimlər yetişdirildi. Mədəniyyət Naxçıvana məxsus dəyərlərlə YUNESKO-ya qədər gedib çıxdı.





Üçüncü mərhələdə isə Naxçıvanın mənzərəsində artıq inkişaf etmiş bir diyar yer alır: turizmə qapılarını açan, məhsul ixracatçısına çevrilən, beynəlxalq sərgilərdə iştirak edən, xarici qonaqlarını tarixdən yadigar qalan bölgələri ilə heyrətləndirən, dünya mətbuatında aktual mövzuya çevrilən, saf məhsulları, mətbəxi, qonaqlarının dəyərləndirməsində təmiz diyar "statusu" alan və blokada şəraitində inkişafı ilə tarixə iz salan bir diyar. Ən başlıcası isə bu mərhələ özündən əvvəlki iki mərhələnin də fonunda bununla xarakterizə olunur ki, sakinlər muxtar respublika rəhbərini Qurucu Rəhbər adlandırırlar. Burada sakin-rəhbər sevgisi də formalaşıb. Buna səbəb isə cənab Sədrimizin insanlarla görüşlərində müəllimlə müəllim, təsərrüfatçı ilə təsərrüfatçı olmaqla, yaratdığı səmimi münasibətidir.

*Noyabrın 10-da Vətən müharibəsinin qələbə ilə bitməsi Naxçıvan üçün də yeni mərhələnin əsasını qoydu. İmzalanan üçtərəfli bəyanatda Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev Naxçıvanın nəqliyyat kommunikasiyası ilə bağlı məsələnin də əks olunduğunu, bununla Naxçıvanın blokadasına son qoyulacağını bildirdi. Bu, hər bir naxçıvanlı üçün çox sevindirici və qürurvericidir. Bu bizim ötən 30 ilin hər ilində ən böyük arzumuz olub. Dəmir yolu açılacaq, bəli. Lakin o dəmir yolu ilə yolçuluğa çıxanda hər dəfə dönüb geriyə də baxmaq lazımdır: 30 il əvvəl dəmir yolunun Naxçıvanın döyünən ürəyi kimi dayanması kontekstində o ürəyin dəmir iradə ilə döyünməsinə...*

**Mətanət MƏMMƏDOVA**
**Azərbaycan Respublikasının**
**Əməkdar jurnalisti**

## Muxtar respublikada mədəni tədbirlər mütəşəkkilliklə keçirilir



***Naxçıvan Muxtar Respublikasının Mədəniyyət Nazirliyi tərəfindən oktyabr ayında da mədəni tədbirlərin keçirilməsi davam etdirilmişdir.***

Ay ərzində əlamətdar və tarixi günlərlə, eləcə də görkəmli şəxsiyyətlərin ildönümləri ilə bağlı tədbirlər diqqətdə saxlanılmışdır. Belə ki, Azərbaycan Respublikasının Dövlət Müstəqilliyi Günü münasibətilə Naxçıvan Dövlət Tarix Muzeyində "Müstəqilliyə gedən yol Naxçıvandan başlayır", Məmməd Səid Ordubadi adına Naxçıvan Muxtar Respublika Kitabxanasında "Müstəqilliyimiz əbədidir, sarsılmazdır" və Naxçıvan Musiqi Kollecində "Dövlət Müstəqilliyi Günü" adlı tədbirlər keçirilmiş, sərgilər təşkil edilmişdir. Dahi dramaturq-şair Hüseyn Cavidin anadan olmasının 138-ci ildönümü ilə əlaqədar ədibin Naxçıvan şəhərindəki ev-muzeyində "Hüseyn Cavid Poeziya Günü" adlı tədbir keçirilmişdir.

"Naxçıvan Muxtar Respublikasında xalça sənətinin qorunması və inkişaf etdirilməsinə dair 2018-2022-ci illər üçün Dövlət Proqramı"nın icrası ilə bağlı yaradılmış "Əllə toxunmuş xalçaların reyestri sistemi"nə daxil edilməsi üçün oktyabr ayında 3 yeni xalçanın pasportlaşdırılması işi aparılmışdır.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Ali və orta ixtisas təhsili müəssisələrində ixtisasların müvafiq təşkilatlara hamiliyə verilməsinə dair əlavə tədbirlər və innovasiyaların dəstəklənməsi haqqında" 2019-cu il 3 aprel tarixli Sərəncamının icrası istiqamətində ötən ay işlər davam etdirilmişdir. Nazirliyin hamiliyinə verilmiş Naxçıvan Dövlət Universitetinin Muzeyşünaslıq, arxiv işi və abidələrin qorunması ixtisası üzrə təhsil alan tələbələri üçün Hüseyn Cavidin ev-muzeyində "Hüseyn Cavid poeziyasının işığında", Naxçıvan Musiqi Kollecinin Kitabxanaçılıq və informasiya təminatı ixtisası üzrə təhsil alan III kurs tələbələrinə "Çap əsərlərinin təsviri" mövzularında açıq, Bədii yaradıcılıq işi və xoreoqrafiya ixtisası üzrə təhsil alan tələbələrinə isə ustad dərsləri keçilmişdir. Həmçinin Naxçıvan Müəllimlər İnstitutunda nazirliyin təşkilatçılığı ilə Naxçıvan Dövlət Universitetinin, Naxçıvan Müəllimlər İnstitutunun və Naxçıvan Musiqi Kollecinin Kitabxanaçılıq və informasiya ixtisası üzrə təhsil alan tələbələri ilə "Müasir dövrdə kitabxana xidmətinin təşkili" mövzusunda görüş təşkil edilmişdir. Ümumilikdə, oktyabr ayı ərzində nazirlik tərəfindən hamiliklə bağlı 2 açıq dərs, 2 kitab müzakirəsi, 1 film nümayişi, 2 ustad dərs və 1 görüş olmaqla, 8 tədbir keçirilmişdir.

Oktyabr ayında muxtar respublikada fəaliyyət göstərən 40-dan çox nazirlik, komitə və baş idarələrin, müəssisə və təşkilatların muzeylərlə tanışlığı təmin edilmiş, Azərbaycanın digər bölgələrindən və xarici ölkələrdən muxtar respublikamıza səfər edən qonaqların muzeylərlə tanışlığı zamanı onlara nümunəvi muzey xidməti göstərilmişdir. Beləliklə, ay ərzində muxtar respublikanın muzeylərini 8 min 450 nəfər yerli, 124 nəfər əcnəbi olmaqla, ümumilikdə, 8 min 574 nəfər tamaşaçı ziyarət etmişdir. Ötən ay, həmçinin muzeylərə 73 yeni eksponat daxil olmuşdur.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Naxçıvan Muxtar Respublikasının təhsil müəssisələrində elektron təhsilin təşkili ilə bağlı əlavə tədbirlər haqqında" 2014-cü il 20 iyun tarixli Sərəncamına uyğun olaraq aid təşkilatlarla birgə ötən ay görkəmli maarifpərvər ədib Məhəmməd Tağı Sidqinin ev-muzeyindən Babək rayonunun Nəcəfəlidizə kənd tam orta məktəbinin şagirdləri üçün elektron dərs keçilmiş, dərsi muxtar respublikanın 200-dən çox təhsil müəssisəsi izləmişdir. Bundan başqa, Naxçıvan Muxtar Respublikası Mədəniyyət və Təhsil nazirlikləri tərəfindən təsdiq edilmiş qrafikə əsasən Cəmşid Naxçıvanski Muzeyində, Naxçıvan Dövlət Tarix Muzeyində və Hüseyn Cavidin ev-muzeyi və xatirə kompleksində ümumtəhsil məktəblərinin şagirdləri üçün 3 açıq dərs keçilmişdir. Oktyabr ayında muzeylərdə ümumtəhsil məktəblərinin şagirdləri üçün, ümumilikdə, 41 açıq dərs təşkil olunmuşdur.

Oktyabr ayında muxtar respublikanın kitabxanaları tərəfindən də müxtəlif mədəni tədbirlər həyata keçirilmiş, "Oxunması zəruri olan kitabların Siyahısı"na daxil olan kitabların müzakirəsi aparılmışdır. Adil Babayev adına Naxçıvan Muxtar Respublika Uşaq Kitabxanası tərəfindən ay ərzində 4 "Nağıl günü"keçirilmiş, muxtar respublikada fəaliyyət göstərən uşaq kitabxanaları tərəfindən sağlamlıq imkanları məhdud 19 uşağa səyyar kitabxana xidməti göstərilmişdir. Həmçinin Azərbaycanın əzəli ərazisi olan Dağlıq Qarabağ uğrunda döyüşlərdə iştirak edən əsgərlərimizə mənəvi dəstək, ruh yüksəkliyinin artırılması məqsədilə "Əsgərə məktub" layihəsi və Naxçıvan şəhər məktəblərində "Hər şey qələbə üçün!" mövzusunda inşa yazı müsabiqəsinə start verilmişdir. Oktyabr ayının 12-dən 22-dək davam edən müsabiqəyə ümumtəhsil məktəblərindən 75 inşa yazı daxil olmuşdur. Müsabiqənin qalibləri diplomlarla, fərqlənən inşa yazılarının müəllifləri isə fəxri fərmanlarla təltif olunmuşlar.

Ötən ay muxtar respublikanın kitabxanalarına 114 yeni oxucu müraciət etmiş, oxucu gəlişi 4 min 588 nəfər olmuş, kitab verilişi 36 min 684 nüsxə təşkil etmiş, elektron kataloqa isə 312 adda kitab işlənmişdir.

"Təhsil və mədəniyyət müəssisələrinin qarşılıqlı fəaliyyətinin səmərəli təşkili ilə bağlı 2020-2021-ci tədris ili üçün Tədbirlər Planı"na əsasən oktyabr ayında Naxçıvan Dövlət Film Fondu tərəfindən Naxçıvan şəhərindəki 2, 7, 8 və 12 nömrəli tam orta məktəblərin komandaları arasında "Bu kino ki var..." adlı viktorina keçirilmiş, şagirdlər üçün "Biz qayıdacağıq" bədii filminin nümayişi təşkil olunmuşdur.

Oktyabr ayında ulu öndərimiz Heydər Əliyevin ictimai-siyasi fəaliyyətinin təbliği və vətənpərvərlik hissinin aşılanması məqsədilə Cəlil Məmmədquluzadə adına Naxçıvan Dövlət Musiqili Dram Teatrında çalışan gənclərin Heydər Əliyev Muzeyinə, Naxçıvan Musiqi Kollecinin bir qrup tələbəsinin isə Naxçıvan Döyüş Şöhrəti Muzeyinə ekskursiyaları təşkil edilmişdir.

Hesabat ayı ərzində hazırlanan yeni tamaşaların məşqləri davam etdirilmişdir.

***Naxçıvan Muxtar Respublikası***
***Mədəniyyət Nazirliyinin***
***mətbuat xidməti***

## Beynəlxalq Gözdən Əlillər Günü qeyd olunub



Dünən Məhdud Fiziki İmkanlılar üçün Naxçıvan Regional İnformasiya Mərkəzində Beynəlxalq Gözdən Əlillər Günü münasibətilə tədbir keçirilib. Tədbirdə çıxış edənlər bildiriblər ki, xüsusi qayğıya ehtiyacı olan şəxslər dövlətimizin hərtərəfli qayğısı əhatəsindədir. Onların sosial reabilitasiyaları, təhsil almaları, cəmiyyətə inteqrasiyaları, habelə asudə vaxtlarını səmərəli keçirmələri istiqamətində davamlı işlər görülür. Qeyd olunub ki, Məhdud Fiziki İmkanlılar üçün Naxçıvan Regional İnformasiya Mərkəzində görmə məhdudiyyəti olan şəxslərin informasiya texnologiyalarının imkanlarından istifadələri üçün hərtərəfli şərait yaradılıb. Bu kateqoriyadan olan şəxslər üçün brayl əlifbasının tədrisi üzrə kurslar təşkil olunur, jurnallar nəşr edilir, həmçinin onlara audiokitabxana xidməti göstərilir.

Dünən muxtar respublikanın bütün şəhər və rayonlarında Beynəlxalq Gözdən Əlillər Günü münasibətilə müvafiq kateqoriyadan olan şəxslərlə görüşlər keçirilib. Bu tədbirlərdə, ümumilikdə, görmə məhdudiyyəti olan 300 şəxsə sovqatlar təqdim olunub. Eyni zamanda tədbirdə iştirak edə bilməyən görmə məhdudiyyəti olan şəxslərə evlərində baş çəkilib, onlara ehtiyaclarına uyğun sovqatlar verilib. Tədbir iştirakçıları onlara göstərilən diqqət və qayğıya görə dövlətimizə minnətdarlıqlarını bildiriblər.

***Naxçıvan Muxtar Respublikası***
***Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin mətbuat xidməti***

*Dünən Naxçıvan Muxtar Respublikası Maliyyə Nazirliyi yanında Maliyyə Tədris Mərkəzində "Əmlakın və öhdəliklərin inventarizasiyası qaydaları" adlı təlim keçirilib.*

## "Əmlakın və öhdəliklərin inventarizasiyası qaydaları" mövzusunda təlim

Maliyyə Tədris Mərkəzinin tədris zalında keçirilən təlimə Naxçıvan Muxtar Respublikasında büdcə təşkilatlarında maliyyə mühasibat sahəsində çalışan 12 mühasibat işçisi dəvət olunub. Təlimi giriş sözü ilə açan Maliyyə Tədris Mərkəzinin direktoru Mehriban İmanova təlimin aktuallığı və mahiyyəti haqqında məlumat verib. Bir gün ərzində keçirilən təlim Maliyyə Nazirliyi Aparatının baş məsləhətçi-mühasibi Məmmədnağı Əkbərovun təqdimatında olub. Təlim zamanı iştirakçılara torpaq, tikili və avadanlıqların, debitor borclarının, digər maliyyə aktivlərinin, aktivlərin, ehtiyatların, pul vəsaitləri və onların ekvivalentlərinin, faiz xərcləri yaradan öhdəliklərin inventarizasiyası və digər mövzularda slaydlar vasitəsilə geniş məlumat verilib.



Sonda iştirakçıları maraqlandıran suallar cavablandırılıb.

***Naxçıvan Muxtar Respublikası***
***Maliyyə Nazirliyinin mətbuat xidməti***

## Dərnəklər fəaliyyətini bərpa edib



Heydər Əliyev Uşaq-Gənclər Yaradıcılıq Mərkəzində fəaliyyət göstərən dərnəklərlə yanaşı, "Robotexnika", "Memarlıq-dizayn", "Mental arifmetik", "Maty-plyus", "Bədii gimnastika", "Ebru sənəti", "Məntiq", "Dulusçuluq", "Ağac üzərində oyma", "Metal üzərində bədii döymə", "Xalçaçılıq", "Sürətli oxu", "Qum sənəti" kimi innovativ dərnəklərin yaradılması da fərqli istedadların üzə çıxmasında mühüm rol oynayıb.

Bu dərnəklər uşaq və gənclərə öz istedad və qabiliyyətlərini sınamaq fürsəti verib, nəticədə, onların yeni yaradıcılıq potensiallarının üzə çıxarılmasına imkanlar yaradıb. Yeni dərs ilinin başlanması ilə əlaqədar olaraq dərnəklər fəaliyyətini bərpa edib. İstedadlı uşaqlar bu dərnəklərdə potensiallarını müxtəlif sahələr üzrə sınaya bilərlər.

**✍ Türkan HÜSEYNLİ**

ŞƏRQ qapısı
Baş redaktor: MEHRİBAN SULTANOVA
Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az
Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır
Nömrəyə məsul: Güntac Şahməmmədli
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1500. Sifariş № 851